**Vergilər Nazirliyində BVF-nin nümayəndəsi ilə görüş keçirilmişdir**

Aprel ayının 27-də Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Mərkəzi Asiya Ölkələri Departamentinin baş iqtisadçısı Mariya Albino-Uoru ilə görüş keçirilmişdir.
Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov qonağı salamlayaraq, son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar haqqında məlumat vermiş, BVF ilə işgüzar görüşlərin keçirilməsinin əhəmiyyətindən danışmışdır.
BVF-nin nümayəndəsi Mariya Albino-Uor ölkəmizlə əməkdaşlıqdan, Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və nağdsız ödənişlərin stimullaşdırılması sahəsində əldə olunan nəticələrdən, vergitutma bazasının genişləndirilməsi və qeyri-neft sektorundan vergi daxilolmalarınn artırılması istiqamətində Vergilər Nazirliyinin göstərdiyi səylərdən  məmnunluğunu ifadə etmişdir.
Görüşdə Vergi Məcəlləsinə nəzərdə tutulan dəyişikliklər, 2011-ci ildə vergi gəlirlərinin icrası, 2012-2013-cü illərdə vergi daxilolmaları üzrə proqnozların icrası,  qeyri-neft sektorundan vergi daxilolmalarının yığılmasının gücləndirilməsi ilə bağlı görülən tədbirlər haqqında fikir mübadiləsi aparılmışdır.